*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 263-267* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.263*

# Azərbaycan ornamentinin genezisi və kulturoloji interferensiyası: tarixi inkişaf və estetik-semantik xüsusiyyətlər

**Fəridə Quliyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: feridequliyeva.66@mail.ru
ORCID iD: https://orcid.org/0009-0001-2461-0909

***Xülasə.*** Məqalədə Azərbaycan ornament sənətinin genezisi tarixi-kulturoloji kontekstdə araşdırılır, onun formalaşmasına təsir göstərən estetik, dini, etnik və sosial-mədəni amillər təhlil edilir. Tədqiqat göstərir ki, Azərbaycan ornamenti qədim dövrlərdən başlayaraq Urartu, Manna, Midiya, Atropatena və Qafqaz Albaniyası kimi dövlətlərin, həmçinin Sasanilər, Şirvanşahlar, Elxanilər, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər, Əfşarilər və Qacarilər kimi siyasi-mədəni mühitlərin təsiri altında inkişaf etmişdir. Müxtəlif tarixi mərhələlərdə baş verən siyasi dəyişikliklər, dini-fəlsəfi cərəyanlar və etnik proseslər ornamentin semantik və kompozisiya xüsusiyyətlərinin zənginləşməsinə səbəb olmuşdur.

Məqalədə Azərbaycanın coğrafi mövqeyinin ornament sənətinin inkişafındakı rolu xüsusi vurğulanır. Şərq və Qərb arasında yerləşməsi, eləcə də Böyük İpək Yolu üzərində mühüm tranzit məkan olması Azərbaycanı müxtəlif mədəniyyətlərin qovuşduğu əraziyə çevirmişdir. Bu amil Mesopotamiya, İran yaylası, Anadolu, Mərkəzi Asiya, Hindistan və Çin kimi regionların ornamental təsirlərinin yerli bədii ənənələrlə qarşılıqlı əlaqəsinə şərait yaratmışdır. Nəticədə Azərbaycan ornamenti sinkretik, çoxqatlı və özünəməxsus xarakter qazanmışdır.

Tədqiqatda “kulturoloji interferensiya” anlayışı əsas metodoloji yanaşma kimi tətbiq olunur və müxtəlif mədəni təsirlərin qarşılıqlı sintezi nəticəsində ornament sisteminin formalaşması izah edilir. Müəyyən edilir ki, ornament ilkin mərhələdə magik-qoruyucu və ritual xarakter daşımış, sonrakı dövrlərdə isə estetik funksiya üstünlük qazanmışdır. Bununla yanaşı, simvolik və fəlsəfi məna qatları tam aradan qalxmamış, daha mürəkkəb bədii ifadə formalarında yaşamaqda davam etmişdir.

Araşdırma nəticəsində Azərbaycan ornamentinin nəbatat, zoomorf, kosmoqonik və həndəsi motivlərin harmonik birləşməsi ilə səciyyələndiyi müəyyən olunur. Bu motivlər yalnız dekorativ funksiyaya malik olmayıb, həm də xalqın tarixi yaddaşını, dini-fəlsəfi dünyagörüşünü və estetik təfəkkürünü əks etdirən vizual sistem kimi çıxış edir. Məqalədə həmçinin miqrasiya proseslərinin, hərbi-siyasi hadisələrin və müxtəlif dini ənənələrin ornamental sistemin zənginləşməsinə təsiri təhlil olunur.

Nəticə etibarilə, Azərbaycan ornamenti yalnız dekorativ sənət nümunəsi deyil, milli-mədəni identikliyin, tarixi davamlılığın və xalqın estetik-intellektual potensialının mühüm vizual ifadə forması kimi qiymətləndirilir.

***Açar sözlər***: *Azərbaycan ornamenti, simvolik, semantik, dekorativ sənət, milli*

**Məqalə tarixçəsi:** göndərilib – 22.04.2026; qəbul edilib – 18.05.2026

# Genesis and culturological interference of Azerbaijani ornament: historical development and aesthetic-semantic features

**Feride Guliyeva**

***Abstract.*** The article examines the genesis of Azerbaijani ornamental art within a historical and cultural context, analyzing the aesthetic, religious, ethnic, and socio-cultural factors that influenced its formation. The study demonstrates that Azerbaijani ornamentation developed from ancient times under the influence of states such as Urartu, Manna, Media, Atropatene, and Caucasian Albania, as well as within the political and

cultural environments shaped by the Sassanids, Shirvanshahs, Ilkhanids, Aq Qoyunlu, Qara Qoyunlu, Safavids, Afsharids, and Qajars. Political transformations, religious-philosophical movements, and ethnic processes occurring throughout different historical periods contributed to the enrichment of the semantic and compositional characteristics of ornamentation.
The article particularly emphasizes the role of Azerbaijan's geographical position in the development of ornamental art. Situated between East and West and serving as a major transit zone along the Great Silk Road, Azerbaijan became a meeting point of diverse cultures. This factor enabled the interaction of ornamental influences from Mesopotamia, the Iranian Plateau, Anatolia, Central Asia, India, and China with local artistic traditions. As a result, Azerbaijani ornamentation acquired a syncretic, multilayered, and distinctive character.
The study applies the concept of "cultural interference" as its principal methodological approach, explaining the formation of the ornamental system through the synthesis of various cultural influences. It is established that ornament initially possessed magical-protective and ritual functions, while in later periods its aesthetic function became dominant. Nevertheless, its symbolic and philosophical layers of meaning did not disappear completely but continued to exist in more complex artistic forms.
The research concludes that Azerbaijani ornamentation is characterized by the harmonious combination of vegetal, zoomorphic, cosmogonic, and geometric motifs. These motifs perform not only decorative functions but also serve as a visual system reflecting the historical memory, religious-philosophical worldview, and aesthetic consciousness of the people. The article also analyzes the impact of migration processes, military-political events, and diverse religious traditions on the enrichment of the ornamental system.
Ultimately, Azerbaijani ornamentation is evaluated not merely as a form of decorative art, but as an important visual expression of national-cultural identity, historical continuity, and the aesthetic-intellectual potential of the people.
***Keywords:*** Azerbaijani ornament, symbolism, semantics, decorative art, national.

**Article history:** received – 22.04.2026; accepted − 18.05.2026

## Giriş / *Introduction*

Azərbaycan ornament sənəti xalqımızın estetik dünyagörüşünü, mənəvi dəyərlərini və tarixi yaddaşını əks etdirən mühüm bədii sistemdir. Bu ornament ənənəsi qədim dövrlərdən başlayaraq formalaşmış, müxtəlif siyasi qurumların və mədəni mühitlərin təsiri ilə zənginləşmişdir. Erkən mərhələlərdə Urartu, Manna və Midiya kimi dövlətlərin, sonrakı dövrlərdə isə Sasanilər və Səfəvilər kimi siyasi strukturların mədəni mühiti ornamental sistemin təşəkkülündə rol oynamışdır.

Azərbaycanın Şərq və Qərb arasında yerləşməsi, xüsusilə Böyük İpək Yolu üzərində mühüm mövqeyi mədəni mübadiləni gücləndirmiş, ornamentin həm semantik, həm də kompozisiya baxımından çox qatlı və sinkretik xarakter qazanmasına şərait yaratmışdır.

Məqalənin məqsədi Azərbaycan ornamentinin genezisini tarixi-kulturoloji kontekstdə qısa şəkildə təhlil etmək və onun milli-mədəni identikliyin vizual ifadə forması kimi əhəmiyyətini göstərməkdir.

## Əsas mətn / *Main part*

Azərbaycan ornamentləri özündə vətəndaşımızın estetik təsəvvürü ilə onun ayrı-ayrı zamanlarda içində yaşamış olduğu toplumun ictimai-ideoloji məzmununu birləşdirir. Bu gün millətimizin yaşadığı geniş ərazidə yayılmış ornamentimizin yaranma köklərini tədqiq etmək üçün Urartu və Manna, Midiya (Mad), Atropatena və Qafqaz Albaniyası, Sasanilər, Şirvanşahlar, Elxanilər, Ağqoyunlu və Qaraqoyunlular, Səfəvilər, Əfşarilər və Qacarilər dövrünə aid maddi mədəniyyət nümunələri öyrənilməlidir [Kuban: 2010, s. 45-240; Blair & Bloom: 1994, s. 60-250].

O da diqqətdən yayınmır ki, millətimizin formalaşdığı əraziyə kənardan yönəlmiş müxtəlif məqsədli miqrasiya axınları özlərinin nəşət tapdıqları regiondan həmin mədəni arealın ünsür və üslublarını buraya daşımışlar. Bu axınlar arasında istilaçı hücumları, qarət basqınları, təbii və siyasi zərurətdən doğmuş məcburi sülh məramlı köçlər, müttəfiqlər arasındakı razılıqlı əhali yerdəyişmələri və s. ola bilirdi. Bu proses nəticəsində ornament formaları "kulturoloji interferensiya" mərhələsindən keçərək sintez olunmuşdur [Gombrich: 1979, s. 1-30; 85-120].

Qədim dünya dövründən orta əsrlərin başlanğıcına qədər tarixən Azərbaycan adı ilə məlum olan ərazidə bu ölkəyə xas olan naxış elementləri və ornament bir sıra faktorların (coğrafi, etnoloji, sosiopsixoloji, siyasi-ideoloji, dini…) təsiri altında tədricən məna və forma etibarı ilə konkretləşməyə başlayaraq "qaynayıb-qarışma" ilə səciyyələnən təşəkkül dövrünü keçmişdir [Mithen: 1996, s. 120-210].

"Kulturoloji interferensiya" mərhələsini keçmiş, yəni fərqli mədəniyyət vektorlarının üstüstələşməsi prosesindən çıxmış məhəlli ornament təqribən deyilən zamandan bəri ərazimiz və burada yaşayan əcdadımız üçün xarakterikləşmiş və artıq ixtisaslaşmamış yerli fərd (yəni sadə vətəndaş) üçün də tanınan, eyni zamanda xalqımızı tanıdan tipik bir bəlgəyə (bədii-təsviri dəlilə) çevrilmişdir.

Aparılan tədqiqatların gedişində Azərbaycan milli ornamentinin təhlili nəticəsində ona xas olan əsas səciyyəvi cəhətlər aşkara çıxarılmışdır. Ornamentin əksərən çoxelementli olması milli ornament üçün səciyyəvidir. Primitivlikdən uzaq olması ilə maksimal ifadəlilik daşıyan səlislik daha bir səciyyəvi cəhətdir [Gombrich: 1979, s. 1-30; 85-120].

Milli ornamental kompozisiyalar Azərbaycanın coğrafi yerləşməsi, siyasi-mədəni-sosial tarixi və etnik rəngarəngliyi ilə şərtlənən zəngin təzadlılığı ilə seçilir. Nəbatat və zoomorf mənşəli ornamentlərin estetik tərzdə əks etdirmə təqdimatı həm də bu motivlərin praktiki faydalılığına görə tərənnümü və simvolik mənasına görə ideal xüsusiyyətlərin təbliği hədəflərinə xidmət edir [Eliade: 1959, s. 8-67; 188-213]. Səma cisimlərinin bir qədər obrazlı (stilizə edilmiş) və ya sırf həndəsi şəkildə təsviri bunların İlahi möcüzə xarakteri daşıması və bununla bağlı hətta pərəstiş obyekti kimi tanınması məqsədinə yönəlmişdir [Necipoğlu: 1995, s. 25-120].

Milli ornamentin kökündə inancla bağlı magik işarələrin və din mənşəli rəmzlərin də rolu əhəmiyyətlidir – bunların mənəvi-əməli təyinatı: bolluq, bərəkət, uğurluluq, əmniyyət, güc-qüdrət; Yaradanın himayəsinə nail olmaq, Onun rəhmindən bəhrələnmək, Həqiqətin yolundan çıxmamaq və digər xoşbəxt həyat təmin edən amillərə sahiblənmək olmuşdur.

Təhlil nəticəsində aşkara çıxarılan nəticə budur ki, yaşadığımız arealda yüzilliklər boyunca formalaşan ənənəvi ornamentin ilkin modelləri insan təfəkkürü üçün səciyyəvi olan Ali fövqəladə qüvvəyə fitri inam hissindən qaynaqlanmışdır. Lakin bununla belə insan fitrətində paralel olaraq yer tutan daha bir duyğu – gözəllik cazibəsi – həmin modellərin təşəkkülündə iştirak etmişdir. Qeyd edilməlidir ki, "Ali fövqəladə qüvvəyə inam" fitri hissinin təsiri altında subyektiv insan ağlı özünün orijinal fantaziyasının fəaliyyəti nəticəsində (müxtəlif) gözəgörünməz qüvvələrə yönümlü (ən ibtidai) həndəsi formalarda xarakterik təsvirlər icad etmişdir. İlk növbədə bu (simmetriya və mütənasiblikdən məhrum olmayan) protoornament adlandıra biləcəyimiz orijinal təsviri fiqurlar (təbii fəlakətlərdən, vəhşi heyvanlardan və digər təhlükə doğurucu təsadüflərdən) mühafizə/müdafiə mahiyyəti daşımışdır. Tədricən insan şüurunun təkamülü və eyni zamanda təcrid olunmuş şəraitdə yaşayan tayfa və qəbilələrin ümumbəşəri tərəqqi yoluna düşməsi ilə müşayiət edilən "sehr-cadu-tilsim" kimi xəyali subyektdən uzaqlaşma insan yaradıcılığında ornamentin ibtidai funksiyasını geriyə çəkərək, hətta kənarlaşdıraraq(!) onun estetik mahiyyətini önə çıxarır; arxaik subyektiv funksionallığı "fəlsəfi seyranlıq" zövqü ilə əvəz edir [Eliade: 1959, s. 8-67; 188-213].

Tədqiq edilən mövzu üzrə maraqlı incəliklər gözə çarpmışdır ki, bunlardan başlıcası Azərbaycan ənənəvi ornamentinin bir neçə regional mədəniyyətin (lokal sivilizasiyanın) ornamentalistikası ilə kulturoloji qohumluq (oxşarlıq) cəhətləri müşahidə etdirir. Bunlar əsasən tarixi səhnədəki coğrafi qonşuluq, kütləvi miqrasiya axınları və siyasi tabeçilik amilləri ilə izah oluna bilir [Kuban: 2010, s. 45–240; Blair

& Bloom: 1994, s. 60-250]. Bu cərgədən Mesopotamiya, İran yaylası, Anadolu (Kiçik Asiya yarımadası), Şam ölkələri, Misir, Hindistan, Çin, Altay-Monqolustan, Mərkəzi Asiya, Volqaboyu-Ural kimi regionları sadalamaq doğru olar.

Milliləşmiş ənənəvi ornamentimizin dünya xalqlarından bir çoxunun ornamentlərindən seçdirən özəl xüsusiyyəti – onun bir neçə kökdən nəşət tapmasına istinadən kreativ inkişaf nəticəsində sinkretik şəkildə çulğalaşaraq özünəməxsus mürəkkəb xarakter daşımasıdır. Regional təsirlərdən savayı tarix sürəcində mövcud olmuş dini-fəlsəfi cərəyanların, nəzəriyyələrin təsiri altında xarakterik simvolika ərsəyə gəlmişdir. Bəşərin ilkin inkişaf dövründən başlayaraq ibtidai inanclardan sonra, musəvilik, zərdüştilik, hinduizm (bərəhmənilik), buddizm (budailik), xristianlıq (isailik) və nəhayət İslam dinlərinin meydana gəlişi sözsüz ki, insanların (və o cümlədən Azərbaycan insanının) estetik dünyagörüşünə, semantik simvolikanın təşəkkülünə təsir qoymuşdur.

Sözsüz ki, vətənimizin coğrafi cəhətdən təbii təzadları ilə heyran qoyan Avrasiya qitəsinin cazibəli bir nöqtəsində qərar tutması da tədqiq edilən mövzu baxımından öz rolunu oynayıb. Tarix boyunca Şərq və Qərb arasında mühüm mövqedə yerləşən Azərbaycan hər iki "sivilizasiya qütbünün" təsirindən faydalansa da, özü də həmin istiqamətlərdə təsirini buraxmışdır. "Böyük İpək yolu" adı ilə tanınmış bu transkontinental karvan yolları şəbəkəsi vasitəsi ilə Uzaq Şərqin (Çin, Tibet, Koreya, Yaponiya, Cənub-Şərqi Sibir regionları) mədəniyyət "düsturları" maddi nümunələr vasitəsi ilə burada öz təsir köklərini sala bilmişlər. Bundan əlavə Uzaq Şərqlə Azərbaycan arasında yerləşən nəhəng ərazilərdə (Mərkəzi Asiya yəni Türkustan/Dəşti-Qıpçaq, Monqolustan, Böyük Xorasan/Əfqanıstan və həmçinin bu yoldan bir qədər kənara düşən Hindistan) yer almış ölkə və xalqlar da həmin yol təriqi ilə Azərbaycanla qarşılıqlı təsir münasibətində olmuşlar. Bu ticarət şəbəkəsi yalnız iqtisadi deyil, həm də mədəni və bədii ideyaların yayılmasına xidmət etmişdir [Foltz: 2010, s. 1-20; 90-120; 180-205].

Öz növbəsində Azərbaycan, Böyük İpək Yolu üzərində yerləşərək Şərqdən Qərbə daşınan ipək, çini-saxsı, kağız və barıt kimi mühüm məhsulların tranzitində strateji mövqe tuturdu. Bu yol vasitəsilə yalnız maddi mübadilə deyil, həm də mədəni və bədii təsir prosesi baş verirdi. Azərbaycan tacirləri və sənətkarları ixracata layiq yerli məhsullarını – xüsusilə toxuculuq və xalçaçılıq məmulatlarını – karvanlara qoşaraq Qərb bazarlarına çıxarır, beləliklə, ölkənin ornamental-estetik ənənələrinin yayılmasına zəmin yaradırdılar. Məsələn, Fransada geniş yayılmış və yüksək dəyər qazanan toxuculuq nümunələrindən biri Obüsson xalçalarıdır. Bu xalçalar Obüsson (fr. Aubusson) şəhərində istehsal olunurdu. Şəhər XVII əsrdən etibarən Avropanın mühüm toxuculuq mərkəzlərindən birinə çevrilmiş, 1665-ci ildə isə kral manufakturasının yaradılması ilə istehsal daha da sistemli xarakter almışdır. Buna görə Obüsson sonradan "qobelen paytaxtı" kimi tanınmışdır. Obüsson istehsalı əsasən divar qobelenləri (tapestry) ilə məşhur olsa da, xalça tipli toxuculuq nümunələri də hazırlanmış və bu ənənə XIX əsrin ortalarınadək davam etmişdir. Tədqiqatçılar qeyd edirlər ki, Şərq – xüsusilə Qafqaz, o cümlədən Azərbaycan xalçaçılıq ənənələrinin kompozisiya quruluşu və ornamental sistemi Avropa toxuculuq məktəblərinə, həmçinin Obüsson sənətinə müəyyən dolayı təsir göstərmişdir [Blair & Bloom: 1994, s. 60-250]. Beləliklə, Azərbaycan yalnız tranzit ərazi kimi deyil, həm də özünün zəngin dekorativ-tətbiqi sənət nümunələri ilə Şərq və Qərb arasında mədəni körpü rolunu oynamışdır.

Qeyd olunduğu kimi, hərbi-siyasi proseslər mədəni mübadilə hadisəsində, o cümlədən ornamental motivlərin qarşılıqlı təsir və transformasiyasında mühüm rol oynamışdır. Tarixin müxtəlif mərhələlərində Azərbaycan ərazisi Əhəmənilər, Ərsaqilər, Sasanilər sülalələrinin, eləcə də Əməvi xilafəti və Əbbasi xilafəti hakimiyyəti altında olmuş, daha sonra isə Çingiz xan və Hülaku xan tərəfindən yaradılmış imperiya strukturlarının tərkibinə daxil edilmişdir [Kuban: 2010, s. 45-240].

Bununla yanaşı, bu ərazilər müxtəlif dövrlərdə kimmer, skit, sarmat, alan, hun, bulqar, savir və xəzər tayfalarının miqrasiyalarına məruz qalmışdır. Sözügedən hərbi yürüşlər, siyasi asılılıqlar və etnik hərəkətlilik nəticəsində formalaşan çoxqatlı mədəni mühit ornamental sistemlərdə də öz əksini tapmışdır. Müxtəlif dini-fəlsəfi sistemlər – zərdüştilik, xristianlıq və İs-

lam – ornamental simvolikanın formalaşmasına mühüm təsir göstərmişdir [Eliade: 1959, s. 8-67; 188-213]. Beləliklə, əsrlər boyu davam edən qarşılıqlı təmaslar nəticəsində müəyyən oxşarlıqlar və ümumi tipoloji xüsusiyyətlər meydana çıxmış, mədəni inteqrasiya prosesi təbii şəkildə incəsənət və xüsusilə ornament sənətində silinməz iz buraxmışdır. Lakin inteqrasiya ilə bərabər differensiasiya prosesi də öz işini görüb: bugün Azərbaycan ornamenti bir sıra təkrarsız xarakterik cəhətlərə malikdir ki, bunlar onu (yəqinliyə yaxın) yüksək dərəcəli ehtimalla başqa xalqların ornamentindən seçmək/ayırmaq imkanı verir.

Azərbaycan ornamentinin orijinal xüsusiyyətlərindən əsası maddi-mənəvi yaradıcılıq məhsulu olan bu təsviri sənət növünün sadədən mürəkkəbə doğru geniş diapazon zəbt etməsidir. Bəzən həmin sadəliklə mürəkkəblik vahid bir kompozisiyanın tərkibində birləşərək dolğun və göz oxşayan bir ansamblı meydana gətirir. Lakin ornamentimizin spektrinin (mürəkkəbliyə yönələn) yuxarı mərtəbəsində demək olar ki, həmişə çox rahat və kamil riyazi-həndəsi kombinasiyalara rast gəlirik; sanki xalıya, coraba, saxsıya, kəlağayıya, ... naxış vuran insan yüksək səviyyədə riyazi savada malikdir [Necipoğlu: 1995, s. 25-120].

## Nəticə / *Conclusion*

Aparılan təhlillər göstərir ki, Azərbaycan milli ornamenti tarixi inkişaf prosesində çoxqatlı kulturoloji interferensiyadan keçmiş, lakin bu təsirləri mexaniki şəkildə deyil, yaradıcı transformasiya yolu ilə mənimsəmişdir. Qədim dövlət qurumlarından başlayaraq orta əsr siyasi strukturlarınadək uzanan mədəni irs kontekstində formalaşan ornamental sistem həm dini-magik düşüncənin, həm də estetik zövqün sintezindən yaranmışdır.

Ornamentin ilkin qoruyucu-semantik funksiyası zamanla estetik dominantlıqla əvəzlənmiş, lakin simvolik məzmun tamamilə aradan qalxmamış, əksinə, daha incə və fəlsəfi qatlarda mövcudluğunu qorumuşdur. Coğrafi mövqe, miqrasiya prosesləri və beynəlxalq ticarət yolları – xüsusilə Böyük İpək Yolu – Azərbaycan ornamentini qlobal mədəni mühitin fəal iştirakçısına çevirmişdir.

Beləliklə, Azərbaycan ornamenti sadəcə dekorativ sistem deyil, milli tarixi yaddaşın, etnik-mədəni identikliyin və estetik-intellektual təfəkkürün vizual ifadəsidir. Onun sinkretik, lakin fərqləndirilə bilən xarakteri milli mədəniyyətimizin davamlılığını və yaradıcılıq potensialını təsdiq edən mühüm bədii göstəricidir.

## Ədəbiyyat / *References*

1. Gombrich E.H. (1979). *The Sense of Order: A Study in the Psychology of Decorative Art*. Ithaca: Cornell University Press.
2. Mithen S. (1996). *The Prehistory of the Mind: The Cognitive Origins of Art, Religion and Science*. London: Thames & Hudson.
3. Eliade M. (1959). *The Sacred and the Profane: The Nature of Religion*. New York: Harcourt.
4. Blair S., Bloom J. (1994). *The Art and Architecture of Islam 1250–1800*. New Haven: Yale University Press.
5. Necipoğlu G. (1995). *The Topkapı Scroll: Geometry and Ornament in Islamic Architecture*. Santa Monica: Getty Center.
6. Kuban D. (2010). *Islamic Art and Architecture*. Woodbridge: Antique Collectors' Club.
7. Foltz R.C. (2010). *Religions of the Silk Road: Premodern Patterns of Globalization* (2nd ed.). New York: Palgrave Macmillan.